

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 91 (23.733)

*21 may 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

Dövlətimizin başçısı vurğulayıb ki, bugünkü Ermənistandakı vəziyyətə nəzər salsaq, görərik ki, Ermənistan müstəqilliyi qazanan zaman ilə müqayisədə vəziyyət daha ağırdır. Çünki bu gün Ermənistanın ordusu belə, yoxdur. O, tamamilə məhv edilib. Ölkə altı aydan çoxdur ki, daimi siyasi böhran içindədir. Nəhayət, onlar işğal etdikləri əraziləri itirdilər. O ərazilər ki onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus deyildi. İndi isə, münaqişə başa çatdıqdan sonra, Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həll olunub.

Ölkəmizin başçısı bildirib ki, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. 10 noyabr 2020-ci il tarixli birgə Bəyanata əsasən kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlı layihənin həyata keçirilməsinə artıq başlanılıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə görüşmüşdür.

Ali Məclisin Sədri muxtar respublikanın sosial-iqtisadi inkişafı, təhsil sistemi, yeni texnologiyaların tətbiqi və internet təminatı, eləcə də ərzaq təhlükəsizliyi sahəsində görülən işləri diqqətə çatdırmışdır. Naxçıvan Muxtar Respublikası ilə Yaponiya arasındakı əlaqələrin inkişaf etdiyini bildirən Ali Məclisin Sədri Ordubad rayonundakı Azadkənddə içməli su təminatının yaxşılaşdırılması layihəsini əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir.

Ali Məclisin Sədri ali təhsil müəssisələri arasında əlaqələrin qurulması üçün geniş imkanların olduğunu vurğulamış, Tokio Yay Olimpiya Oyunlarında muxtar respublika idmançısının iştirak edəcəyini xatırlatmışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Vada Cüniçi Azərbaycan-Yaponiya əlaqələrindən və Naxçıvan səfərinin əhəmiyyətindən danışmışdır. Muxtar respublikanın inkişafına və şəhərin gözəlliyinə heyran qaldığını qeyd edən səfir ölkəsində Naxçıvanın turizm potensialından və burada gördüklərindən bəhs edəcəyini bildirmiş, əlaqələrin inkişafında səylərin artırılacağını diqqətə çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatının açılış mərasimi olub



Mayın 20-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatının açılış mərasimi keçirilmişdir.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, pandemiya dövründə Şahmat Federasiyasının da proqramında müəyyən dəyişiklik edilmişdir. Federasiya bu müddət ərzində onlayn yarış və tədbirlər keçirərək şahmatçıların sevimli idman növlərindən kənarda qalmamasını təmin etmişdir. Muxtar respublikada pandemiya ilə bağlı vəziyyətin sabit olması imkan verdi ki, Azərbaycan çempionatı Naxçıvanda keçirilsin.



Bildirilmişdir ki, Azərbaycanda şahmata olan dövlət qayğısı daim hiss olunur, şahmat sistemli və ardıcıl inkişaf etdirilir. Bu gün Azərbaycan şahmatçıları dünyada sayılıb-seçilən şahmatçılardandır. Növbəti Azərbaycan çempionatının uğurla keçirilməsi bir daha şahmata olan qayğının bariz nümunəsidir. Bundan əvvəl şahmat üzrə kişilər arasında keçirilən Azərbaycan çempionatı artıq uğurla yekunlaşıb. İnanırıq ki, qadınlar arasında keçiriləcək yarış da gərgin mübarizə şəraitində, olduqca maraqlı və yaddaqalan olacaq.

Seymur Talıbov çempionatda iştirak edən hər bir qadın şahmatçıya uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşəbbüsü ilə Azərbaycan çempionatının ilk dəfə Bakıdan kənarda daha maraqlı və yüksək səviyyədə keçirildiyini vurğulayan Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov qonaqpərvərliyə və yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirmişdir. Qeyd edilmişdir ki, növbəti çempionatın muxtar respublikada keçirilməsinin başlıca səbəbi məhz Naxçıvanda daxili turnirin beynəlxalq turnir səviyyəsində təşkil olunması, eyni zamanda ənənəvi Naxçıvan Beynəlxalq Şahmat festivallarının yüksək səviyyədə təşkilidir. Naxçıvanda şahmatın yüksəliş mərhələsində olduğunu vurğulayan Faiq Həsənov bildirmişdir ki, hazırda muxtar respublikada bu idman növünün inkişafı üçün hərtərəfli şərait yaradılmışdır.

Yarışın baş hakimi Emin Hacıyev iştirakçılara nailiyyətlər arzulamış, yarışın qaydaları haqqında məlumat vermişdir.

Sonra qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatının püşkü atılmışdır.

**"Şərq qapısı"**

## "Karyera günü" keçirilib

***Naxçıvan Dövlət Universitetinin sonuncu kurs tələbələrinin iştirakı ilə keçirilən "Karyera günü"nü giriş sözü ilə universitetin rektoru Elbrus İsayev açaraq dövlət qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsinin tələbələrin ixtisasları üzrə dövlət müəssisələrində təcrübə keçmələri və işlə təmin olunmaları baxımından əhəmiyyətindən danışıb.***

Rektor bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi məzunların gələcək karyera inkişafında xüsusi əhəmiyyət daşıyır. Tələbələrlə mütəmadi görüşlərin keçirilməsi onlara karyera planlama fikrini aşılayır, karyeralarını inkişaf etdirmələrinə köməklik göstərir, tələbələrin praktik təcrübələrini inkişaf etdirir və dünyagörüşlərini artırır.



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli deyib ki, muxtar respublikamızda gənclərin məşğulluğu üçün hər cür imkan yaradılır, onların işə qəbulu diqqət mərkəzində saxlanılır. Hazırda Dövlət İmtahan Mərkəzi tərəfindən 33 isti-

qamət üzrə işə qəbul, attestasiya, sertifikasiya və qiymətləndirmə imtahanları keçirilir.

Sonra Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Məmməd Babayev slayd vasitəsilə "Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət orqanlarına və digər müəssisələrə işə qəbulu qaydaları" haqqında tələbə-gənclərə ətraflı məlumat verib, suallar cavablandırılıb.

Tədbirin sonunda tələbələrə imtahanların keçirilməsi qaydaları və digər məlumatları özündə əks etdirən bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***Yaz fəslinin gəlişi muxtar respublikamızın insan əli ilə yaradılan gözəlliklərini təbiət fırçası ilə tamamlayaraq büsbütün yeni bir mənzərə yaradıb. Elə gözəl yaz səhərlərinin birində zəngin təbiəti, min bir dərdə dərman sayılan bulaqları, fauna və florasıyla muxtar respublikamızın seçilən bölgələrindən biri olan Şahbuz rayonuna üz tuturuq. Səfərimizin səbəbi isə bütün bölgələrimiz kimi, dövlət qayğısından öz payını alan Külüs və Keçili kəndlərində keçən günlərdə yeni nasos stansiyasının tikilərək istifadəyə verilməsi, həmin kəndlərdə elektrik təsərrüfatının tamamilə yenilənməsindən sonra kənd sakinləri ilə həmsöhbət olmaq, onların fikirlərini öyrənmək, növbəti dövlət qayğısının adıçəkilən yaşayış məntəqələrində yaratdığı ovqatı öyrənmək idi. Əsas mövzuya keçməzdən əvvəl adını çəkdiyimiz yurd yerlərimiz haqqında oxucularımıza qısa məlumat vermək istəyirəm.***



# Məhsulunuz bol olsun

## *Külüs və Keçili kəndlərində əkilməmiş torpaq sahəsi qalmayacaq*

Külüs kəndi Zəngəzur dağlarının orta dağlıq qurşağında, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. “Külüs” adının etimologiyası mərhum filoloq alim Adil Bağırovun “Naxçıvan oykonimləri” kitabında belə verilir: “Müxtəlif mənbələrdə öz əksini tapan bu ad günümüzə qədər qorunub, saxlanılıb. Tədqiqatçıların fikrincə, adın kühül (mağara) sözündən əmələ gəlməsi ehtimal olunur. V.Qriqoryev adın məna açımına toxunmadan qeyd edir ki, XIX əsrdə Kəngərlilərin salayçı qolu bu kənddə yaşayırmış. Həmin fikrə əsaslanıb deyə bilərik ki, bu ad Kəngərlilərin salayçı qoluna məxsus tirə adlarından biridir”.





Kənd ağsaqqalı, təqaüddə olan müəllim Rəşad Allahverdiyev deyir ki, qədim türk dilində “hündür olmayan yer” mənasında işlədilən “Külüs” adı, həqiqətən də, dağların əhatəsində, ətəyində zonada yerləşir. Kənd sakinlərinin əsas məşğuliyyətinin bağçılıq və heyvandarlıq olduğunu qeyd edən Rəşad müəllim onu da diqqətimizə çatdırır ki, külüslülər nə qədər zəhmətkeş olsalar da, suvarma suyunun çatışmazlığı, yolların bərbad vəziyyəti son dövrlərədək əllərimizi işdən soyutmuşdu. Kəndin cavanları isə zamanla yurdumuzu tərk edib şəraitsizlik ucbatından böyük şəhərlərə üz tuturdular. Bəzən saatlarla, bəzən isə bütöv gün elektrik enerjisinin verilməməsi insanları təngə gətirmişdi. Lakin bu gün kəndimizə gələnlər buraları az qala tanımırlar. Çünki dövlət qayğısı o qədər yüksək səviyyədədir ki, bu yurd yerinin təbii gözəlliklərinə xüsusi bir yaraşıq verir. Məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunaraq istifadəmizə verilib. Bir zamanlar yatsaq, yuxumuza gəlməzdi ki, belə yaraşıqlı, isti sinif otaqlarında dərs keçəcəyik. Müəllimlərimiz yaradılan şəraitdən istifadə edərək ölkəmizin gələcəyi üçün savadlı, vətənpərvər gənclər yetişdirir. Bu yurd yerinin oğulları 44 gün davam edən azadlıq mücadiləmizdə öz qəhrəmanlıqlarını göstərdilər. Belə ki, zəfər savaşımızda 4 şəhid verdik. Şəhid ailələrinin bu gün hərtərəfli qayğı ilə əhatə olunması da dövlət qayğısının təzahürüdür.

Ömrünün yarıdan çoxunu müəllimlik peşəsinə həsr etmiş müsahibim bu gün öz həyətyanı sahəsində bağçılıqla məşğul olur. O deyir ki, nə qədər insanın qolunda güc, canında təpər varsa, zəhmətdən əl çəkməməlidir. Bu gün yaşım 75-i haqlasa da, sağlam, gümrah qalmağımın səbəbi elə bu dağlar qoynunda təmiz havadan udub, yerli məhsullarla qidalanaraq torpaqdan güc almağımdır. Hasilə gətirdiyim məhsulları həftəsonu yarmarkalarına göndərməklə həm bazarlarımızda bolluq yaratmağa, həm də öz güzəranımızı yaxşılaşdırmağa çalışıram. Kəndimizin iqlim şəraiti arıçılığa da uyğundur. 7 arı ailəsi saxlayır, süfrəmizdə öz məhsullarımızdan istifadə edirik.

Onu da qeyd edim ki, heyvandarlığın inkişafına da öz töhfələrini verirlər. Belə ki, kənd sakinlərindən Xanlar Həsənov və Tofiq Həsənov ailə təsərrüfatçılarına göstərilən qayğıdan, verilən subsidiyalardan istifadə edərək öz təsərrüfatlarını genişləndiriblər. Onların hər biri 12 baş iribuynuzlu heyvan saxlayır, ağartı məhsulları istehsal edirlər. Öz tələbatlarından artığını isə dükan-bazara çıxarırlar.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Nemət Cəmiyev deyir ki, kəndimizə göstərilən növbəti dövlət qayğısı bütün sakinləri ürəkdən sevindirib. Bu qayğı kənddə əkilməmiş torpaq sahələrinə yeni həyat verməkdədir. Şahbuzçaydan qidalanan və suyu 510 metr yüksəklikdə yerləşən sahəyə vurmaq gücündə olan yeni nasos stansiyası bol məhsul istehsalına imkan verəcək. Su sərfi saatda 300 kubmetr olan nasos və gücü 800 kilovat elektrik mühərrikindən ibarət nasos stansiyası vakuum sistemi ilə təmin olunub. Suyun sahəyə verilməsi üçün təzyiqli boru xətləri bərpa edilib, yeni xətt çəkilib. 2140 metr boru xətti üzərində 64 bar təzyiqə davam gətirən 4 əksklapan, 1 tənzimləyici siyirtmə quraşdırılıb, boru xəttinin dayanıqlığını artırmaq üçün 18 beton dayaq tikilib, boru xəttinin sonunda 2 hidrant, 2 paylayıcı hovuz quraşdırılıb.

Kənddə həmsöhbət olduğumuz yaşlı və ortayaşlı kənd sakinləri məmnunluq və minnətdarlıq hissi ilə xatırlatdılar ki, həmin nasos stansiyasının tikilməsi layihəsi 40 il bundan əvvəl, hələ Sovetlər Birliyi dövründə nəzərdə tutulmuşdu. Lakin həmin dövrdə bu ərazidə enerji təsərrüfatının normalara uyğun olmaması layihənin icrasına imkan verməmişdir. Müstəqillik illərində muxtar respublikada enerji təhlükəsizliyi istiqamətində görülən tədbirlərin nəticəsidir ki, Şahbuzkənd, Külüs və Keçili kəndlərində elektrik sistemləri yenilənmiş, “Şahbuz” yarımstansiyasının gücü artırılmış, bu isə artıq su təminatını yaxşılaşdıran nasos stansiyasının yaradılması, yüz hektarlarla torpaq sahəsinin əkin dövriyyəsinə qatılması ilə nəticələnmişdir.

Bu kənddən aldığımız xoş təəssüratlarla üz tuturuq qonşu Keçili kəndinə. Burada da bizi göstərilən qayğıdan sevinc hissi keçirən insanlar qarşılayır. Öncə onu deyim ki, Keçili rayon mərkəzindən 20 kilometr şimalda, Zəngəzur silsiləsinin yamacında yerləşir. Bir zamanlar bərbad halda olan kənd yolu yerini son dövrlərdə aparılan məqsədyönlü siyasət nəticəsində qaraörtüklü, hamar yollara əvəzləyib. Elə bu da imkan verib ki, kənd özünün zənginliyi ilə turistləri buraya cəlb edə bilsin. Toponimlərlə zəngin olan kənddə müxtəlif şəlalələrin, insanların inanc yeri olan pirlərin mövcudluğu yurd yerinin qədimliyindən xəbər verir. Burada sıldırım qayanın aşağısında Hovuz piri, Tapın piri, Yarğanın başı piri əhali arasında ən çox ziyarət edilən inanc yerləridir.

Kəndin ən uzunömürlü sakinləri Dadaş Məstəliyev və Abıhəyat Məstəliyevadır. Ağsaqqal sözü ən doğru bələdçidir, – deyib bu ailə ilə tanış olmağa yollanıram. Yaşı 90-ı haqlamış Dadaş baba və Abıhəyat nənə bizi mehribanlıqla qarşılayır. Kəndlərinə gəlişimizin səbəbini öyrənəndə Dadaş baba deyir ki, ay qızım, keçmişi unutmaq, həyatımızda dəyərli işləri ilə iz buraxan, qayğıkeş, mərhəmətli insanlara biganə qalmaq olmaz, əksinə, onlar haqqında cavanlara məlumat vermək borcumuzdur. Yaşadığımız bu gün isə gələcək nəsillərimizə keçmiş olacaq. Ona görə də bu gün bizlərə qayğı göstərən, bu cür ucqar dağ kəndində belə şərait yaradanlar haqqında daim danışmalı, yazmalı və unudulmaması üçün gələcək nəsillərimizə əmanət verməliyik. Bugünkü gənclər ata-babalarının cəmiyyətdə mövqeyindən, iş təcrübələrindən məlumatlı olmalıdırlar. Keçili kəndinin də keçmişi, tarixi lap qədimə dayanır. İndiki gənclərin bizdən təəccüblə dinlədiyi, kitablardan oxuyub öyrəndiyi çətinlikləri biz yaşayaraq bu günlərə gəlmişik. Elektrik enerjisinin saatla verildiyi, demək olar ki, günün əksər saatlarını işıqsız qaldığımız, məcburiyyət qarşısında ağacları kəsərək evlərimizi isitdiyimiz günləri xatırlayanda özümüzə heyrət edirik. Bu gün, şükürlər olsun ki, hər bir mənzil fasiləsiz elektriklə, mavi yanacaqla təmin olunub. Kənddə təsərrüfatla məşğul olan sakinlərə kreditlər verilir, fərdi təsərrüfat sahələri genişləndirilir. Belə qayğının bəhrəsidir ki, kəndli də bu qiymətli sərvətdən ikiəlli yapışır. Keçilidə xidmət mərkəzi, həkim ambulatoriyası, məktəb, kitabxana fəaliyyət göstərir. Hamısı da müasir binalarda yerləşir. Hələ bir neçə il bundan öncə kənd ərazisində baş vermiş sürüşmə nəticəsində qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evləri sökülərək sakinlərə yeni evlər tikilib. Bir sözlə, hər bir şəraitimiz var. Təbii məhsullarla qidalanıb, Çınqıllı bulağının saf suyundan içirik. Qürurlanırıq ki, kəndimizdən onlarla hüquqşünas, alim, müəllim, həkim Azərbaycanın müxtəlif yerlərində xalqımıza xidmət etdiyi kimi, igid, qorxmaz oğullarımız da Vətən keşiyində canlarını sipər ediblər. Elə kəndimizin qüruru Mərhəmət Həmzəyev kimi.

Abıhəyat nənə də söhbətimizə qoşularaq ömür-gün yoldaşının dediklərini təsdiq edir. Deyir ki, əvvəllər gənclərin işsizlik ucbatından kəndi tərk etməsinə dözə bilmirdim. Bu da artıq yoxdur. Əksinə, böyük şəhərlərdə yaşayan kənd uşaqları artıq öz elobalarına qayıdırlar. Daha nə deyim, ay bala, baxın, – hər şey göz önündədir.

Səmimi söhbətə görə ailəyə təşəkkür edib ayrılıram. Öyrənirəm ki, kənddə 1000-dən çox meyvə ağacı yetişdirən bir bağban da var. Adını sonradan öyrəndiyim Ələddin Məhərrəmovla elə bağ sahəsində tanış olub söhbətləşirəm. Ələddin dayı deyir ki, gözünü açandan öz valideynlərini torpaqla işləyən görüb. Onlardan sonra da bu peşəni özü davam etdirib.



Ələddin dayı bu gün həyətyanı sahəsində cəviz, alma, armud, gilas, gilənar ağacları yetişdirir. Məhsulları yerindəcə satmaqla yanaşı, həftəsonu yarmarkalarına da çıxarır. Qış tədarükü olan kompot, mürəbbələri də elə öz bağlarının məhsullarından hazırlayırlar.

*Daha iki yurd yerimizdən xoş təəssüratlarla ayrılıb, təbiət fırçası ilə dövlət qayğısının ahəngindən yaranan bu mənzərəni yazıya almağa tələsirik. Gəldiyimiz qənaət isə budur ki, zəhmət çəkməyən rahatlığın qədrini bilməz. Bir zamanlar min bir zəhmətlə ağır günlərə qatlaşan bu kəndlərin sakinləri artıq firavan günlərini yaşayırlar. Sevinirlər ki, artıq onların kəndlərində də bundan sonra əkilməyən torpaq sahəsi qalmayacaq. Bu isə artıq reallaşıb.*

**✍ Telli MƏMMƏDOVA**

# Standartlara uyğunluq diqqətdə saxlanılır

İstehsal və xidmətin bütün sahələrində müasir keyfiyyət standartlarının tətbiqinə nail olmaq muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu çərçivədə əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılması, keyfiyyətli yerli məhsulların istehsalının təşviqi Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər aprel ayında da davam etdirilmiş, məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu diqqətdə saxlanılmış, ümumilikdə, məhsul nümunələrinin 60 halda, o cümlədən qida məhsullarının 55 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və nöqsanlar aşkar edilməmişdir.

Yüksəkkeyfiyyətli bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin və Dövlət Baytarlıq Xidmətinin nümayəndələri ilə birlikdə ötən ay Şərur rayonunun Mahmudkəndində, Naxçıvan şəhərinin Tumbul kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmış, bal məhsulunun 2 halda laboratoriya analizi aparılmış, nəticələrinin standartın tələblərinə uyğun olduğu müəyyən edilmiş və sınaq protokollarının surəti ailə təsərrüfatlarına təqdim olunmuşdur.

Muxtar respublikada bütün istiqamətlər üzrə kənd təsərrüfatının inkişafına dövlət dəstəyi göstərilməkdədir. Ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 15, meyvə-tərəvəz məhsullarının 13 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilməkdədir. Ötən ay Şahbuz rayonunun Aşağı Qışlaq kəndində Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, “Naxçıvan qovurması”nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı 30 ailə təsərrüfatına maarifləndirici bukletlər və “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Ay ərzində muxtar respublika üzrə 2 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyi ilə birgə məhsullardan 12 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktları və standartın tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Alkoqollu içkilər istehsal edən 2 müəssisədə arağın 2, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Xarici bazarlara çıxış imkanlarının artırılması xüsusi diqqət mərkəzindədir. Bu məqsədlə ötən ay da muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən “Naxçıvan məhsulları” mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

Dövlət proqramı icra olunur

# Muxtar respublikada xalçaçılığın inkişafı diqqət mərkəzindədir



Bu gün dünyada qədim mədəni tarixi və özünəməxsus mədəniyyət nümunələrinin çoxluğu ilə diqqəti cəlb edən ölkələr sırasında Azərbaycan xüsusi yer tutur. Ölkəmizin beynəlxalq mədəniyyət aləminə bəxş etdiyi dəyərli sənət nümunələri içərisində Azərbaycan xalçalarını ayrıca qeyd etmək lazımdır. Tarixboyu Azərbaycan xalçalarının şöhrəti ölkə sərhədlərini aşmış və mühüm sənətkarlıq nümunəsi kimi əvəzolunmaz simvola çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: ***“Xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin Vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir”.***

İstər xalqımızın malik olduğu işgüzarlıq ənənələri, istərsə də tarixi İpək Yolunun Azərbaycan ərazisindən keçməsi qədim dövrlərdən etibarən bu diyarda xalçaçılığın gəlirli məşğuliyyət növlərindən birinə çevrilməsinə səbəb olmuşdur. Təsadüfi deyil ki, müxtəlif tarixi dövrlərdə ölkəmizdə olmuş dünya şöhrətli səyyahların Azərbaycanla bağlı yazılı məlumatlarında xalçaçılıq ayrıca yer tutur. Bu tarixi mənbələr sübut edir ki, Azərbaycanda toxunan xalçaların özünəməxsus ornamentləri və quruluşu bu əraziyə səyahət edənlər üçün xüsusi maraq doğurmuşdur. Beləliklə, Azərbaycan xalçaları dünya mədəni irsinin bənzərsiz nümunələri sırasında ilk yerlərdən birini tutur. Təkcə onu qeyd etmək kifayətdir ki, 16 noyabr 2010-cu il tarixdə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Keniyanın Nayrobi şəhərində keçirilmiş V sessiyasında Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsi nümunələri siyahısına daxil edilmişdir. Ölkəmizin xalçaçılıq tarixində Naxçıvan xalçaçılıq məktəbi hər zaman özünəməxsus yer tutmuşdur. Müasir dövrümüzdə isə muxtar respublikada xalq yaradıcılığının müxtəlif ənənəvi sahələrinə göstərilən dövlət qayğısı xalça sənətindən də yan keçməmişdir. Görülən işlər və yaradılan şərait Naxçıvanda xalça sənətinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın da əsas məqsədi muxtar respublikada xalçaçılıq sahəsində maddi-mədəni irsin qorunması və davamlı inkişafının təmin edilməsindən ibarətdir.

Bu inkişafın təmin olunmasına xidmət edən mühüm tədbirlərdən biri xalçaçılıq sahəsində kadr hazırlığının və unudulmaqda olan ənənələrin bərpası işinin təşkilidir. Muxtar respublikamızda istər ali təhsil müəssisələrində ənənəvi xalq yaradıcılığı sahələrinin inkişafı üçün yaradılan şərait, istərsə də bu istiqamətdə peşə təhsilinin dəstəklənməsi xalça sənətinin inkişafına da təkan verməkdədir. Fevralın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində istifadəyə verilən Texnologiya mərkəzində fəaliyyət göstərən kabinələrdən biri də Toxuculuq kabinəsidir. Dövlət proqramının icrasına uyğun olaraq birinci rübdə Toxuculuq kabinəsində 14 müxtəlifölçülü xalça, 12 kilim və 3 palaz nümunəsi toxunmuşdur.

Bütün bunlarla yanaşı, qeyd olunan dövrdə Naxçıvan Müəllimlər İnstitutunda fəaliyyət göstərən xalça emalatxanasında “Xarıbülbül” eskizi əsasında xalça toxunması təmin edilmiş, eləcə də 1 yeni xalçanın toxunmasına başlanılmışdır. Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin xalçaçı kursunda təhsil alan 14 müdavimin fevralın 25-də





kursu başa vuraraq sertifikatla təmin olunması bu sahədə peşə təhsilinin təşkili işinin də davam etdirilməsinin mühüm təzahürüdür.

Dövlət proqramının icrası xalça sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası, öyrənilməsi və təbliği istiqamətində yeni imkanlar açmaqdadır. Bu ənənələrin qorunaraq gələcək nəsillərə ötürülməsi Naxçıvan xalçaçılıq məktəbinin bütün tarixi dövrlərdə yaşadılması üçün həyati əhəmiyyət kəsb edir. Proqramın giriş hissəsində qeyd olunduğu kimi: ***“Naxçıvan xalçaları, sadəcə, istehsal məhsulu deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir”.***

Cari ilin birinci rübündə Naxçıvan Dövlət Xalça Muzeyində 1, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasında 2 xalça toxunmuş, 14 xalçanın satışı həyata keçirilmişdir. Həmçinin bu dövrdə Naxçıvan şəhərində “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti tərəfindən istehsal gücü ayda 251 kvadratmetr olan xalça istehsalı müəssisəsinin və istehsal gücü ildə 350 ton kirli yun tədarükü olan Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsinin yaradılması davam etdirilmişdir. Proqramda nəzərdə tutulan və əvvəlki illərdə icrası başa çatdırılan mühüm tədbirlərdən biri də əllə toxunmuş xalçaların reyestri sisteminin yaradılmasıdır. Yanvar-mart aylarında sistemə daxil edilməsi üçün 10 xalçanın pasportlaşdırılması istiqamətində iş aparılmışdır.

Xalça sənətinin inkişafına təsir göstərən başlıca amillərdən biri də bu sahədə elmi araşdırmaların genişləndirilməsidir. Aparılan tədqiqatlar zamanı əldə edilən məlumatlar bir tərəfdən xalça sənəti sahəsində yeni elmi nəşrlərin hazırlanmasına, digər tərəfdən sənətkarların bədii və texniki iş üsullarının müasir dövrümüzdə təbliğinə və tətbiqinə şərait yaradır. Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə yanvar-mart aylarında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində xalçaçılıqla bağlı 3 elmi məqalə nəşrə təqdim olunmuşdur. Akademiyada fevralın 22-də keçirilən seminarda “Toxuculuq və xalçaçılığın inkişafında ipəkçiliyin rolu” mövzusunda məruzə edilmişdir. Bununla yanaşı, yanvar ayında Moldova Respublikasında keçirilən Fənlərarası elmi araşdırmalar üzrə III Beynəlxalq Avropa konfransında “Naxçıvan memarlıq abidələri və xalça nümunələri üzərindəki ornamentlərin oxşarlığı” mövzusunda çıxış edilmiş, konfransın məruzələr toplusu çap olunmuşdur.

“Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası qarşıdakı dövrdə də muxtar respublikada xalçaçılığın inkişafının keyfiyyətcə yeni mərhələyə daxil olmasına şərait yaradacaqdır.

**“Şərq qapısı”**

## Aprel ayı muxtar respublikada təhsil üçün uğurlu olub

***Muxtar respublikada təhsil quruculuğuna göstərilən diqqət və qayğı nəticəsində ötən ay da bu sahə üçün uğurlu olmuşdur. Belə ki, aprelin 9-da Ordubad şəhər 1 nömrəli tam orta məktəbin yeni binasının açılışı olmuş, Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin 3-cü mərtəbəsində yerləşən Uşaq-Gənclər Yaradıcılıq və Texniki Yaradıcılıq mərkəzlərində yaradılan innovativ dərnəklərin təqdimatı keçirilmişdir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə yeni Ağır Atletika İdman Klubu yaradılmışdır. Ay ərzində muxtar respublikanın müəyyən edilmiş 38 təhsil müəssisəsində STEAM kabinələrinin yaradılması istiqamətində təşkilati işlərə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 22 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Aşıq Ələsgərin 200 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr edilmiş interaktiv dərs keçirilmişdir. Aprel ayında ümumtəhsil məktəblərində nümunəvi və interaktiv dərslərin keçilməsi davam etdirilmiş, 259 saat nümunəvi, 12 saat açıq, 4 interaktiv dərs tədris olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”na uyğun olaraq ötən ay, ümumilikdə, 5412 müəllimin sertifikasiyanın test mərhələsində iştirakı təmin edilmişdir. Riyaziyyat, ibtidai sinif, Azərbaycan dili və ədəbiyyatı, tarix, ingilis dili, fiziki tərbiyə, biologiya, texnologiya, fizika müəllimləri üçün sertifikasiyanın müsahibə mərhələsi başa çatmış, digər fənlər üzrə də keçiriləcək müsahibə mərhələsinin mayın 20-dək yekunlaşdırılması nəzərdə tutulmuşdur.

Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində görkəmli oftalmoloq-alim, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

II və VI siniflər üzrə dərsliklərin təkmilləşdirilməsi ilə bağlı yekun rəy hazırlanaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilmiş, ümumilikdə, 8 dərslik üzrə 75 təklif qeydə alınmışdır.

Ay ərzində hamiliyə verilmiş pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin nəzəri və praktik biliklərinin artırılması diqqətdə saxlanılmış, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi, Təhsildə sosial-psixoloji xidmət ixtisaslarının üçüncü kurs tələbələrinin pedaqoji təcrübələrinin başlanğıc konfransı keçirilmiş, tələbələrin Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçmələri təmin olunmuşdur. Bunlarla yanaşı, ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində “Ümumtəhsil məktəblərində fənn kurikulumlarının tətbiqi və məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları” mövzusunda, Naxçıvan Dövlət Universitetinin, “Naxçıvan” Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinə STEAM Tədris Mərkəzində STEAM təlim metodunun əhəmiyyəti, öyrənilməsi və tətbiqi mövzusunda seminarlar keçirilmiş, tələbələrin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindəki innovativ dərnəklərə ekskursiyaları davam etdirilmişdir.

Aprelin 29-da Dövlət İmtahan Mərkəzi tərəfindən tam orta təhsil bazası üzrə keçirilən buraxılış imtahanında bu il məzun olacaq şagirdlərin iştirakı təmin olunmuşdur. 2021-2022-ci tədris ili üçün 1 aprel 2021-ci il tarixdən Naxçıvan Qızlar Liseyinə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə sənəd qəbulu başlamış, mayın 25-dək davam edəcək sənəd qəbulu liseylərdə yaradılmış komissiyalar tərəfindən həyata keçirilir. 10 iyun 2021-ci il tarixdə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə, 11 iyun 2021-ci il tarixdə isə Naxçıvan Qızlar Liseyinə qəbul imtahanının keçirilməsi nəzərdə tutulmuşdur. Ötən ay Heydər Əliyev adına Hərbi Liseyə və ali hərbi məktəblərə sənəd qəbulu da diqqətdə saxlanılmış, təhsilini Hərbi Liseydə davam etdirmək istəyən 448 şagirdin sənədləri hərbi həkim komissiyasında iştirak etmələri üçün liseydə yaradılmış komissiyaya təqdim edilmişdir.

Hesabat ayında Təhsil Nazirliyi tərəfindən elan olunmuş “Mütaliə aylığı”nın keçirilməsi ilə əlaqədar olaraq tədbirlər planı təsdiq edilmiş, ay ərzində müxtəlif tədbirlər – kitab müzakirələri, dram, inşa, şeir, esse, “Sürətli oxu”, “Ən yaxşı təqdimat” müsabiqələri, konfrans, dəyirmi masa, poeziya günü, oxu günü, kitab bağışlama aksiyası, yazıçılarla görüş və digər tədbirlər, eləcə də interaktiv, nümunəvi və açıq dərslər təşkil edilmişdir. Ay ərzində keçirilən tədbirlərə, ümumilikdə, 11 mindən çox şagird cəlb olunmuş, “Kanal 35” Televiziyasında bu məqsədlə silsilə verilişlər, “Bir kitab, bir səhifə” layihəsi, “Mütaliə vaxtı” başlıqlı verilişlər yayımlanmışdır. Bununla yanaşı, “Ümumtəhsil məktəblərində kitabxana işinin təşkili” mövzusunda konfrans, “Mütaliə ən təsirli tərbiyə vasitəsi kimi” mövzusunda dəyirmi masa, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın “Naxçıvan blokadası” ikicildlik kitabının müzakirəsi təşkil olunmuşdur.

“Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi”nin və “Məktəblilərin dram müsabiqəsi”nin muxtar respublika mərhələləri və yekun tədbirləri, “And yerimiz, Vətənim Azərbaycan” mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.

İstedadlı uşaqların aşkar olunması və Beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərinə namizəd şagirdlərin müəyyən edilməsi məqsədilə 26-27 aprel 2021-ci il tarixlərdə ümumtəhsil məktəblərinin VI və VII sinif şagirdləri arasında 2020-2021-ci il Respublika fənn müsabiqələrinin I mərhələsi keçirilmiş, I mərhələdə iştirak edən 470 şagirddən 147-si müsabiqənin II mərhələsinə vəsiqə qazanmışdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Qazilərlə görüş



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Görüş yeri” kafesində İkinci Qarabağ müharibəsi qaziləri ilə gənclərin görüşü keçirilib. Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Mirzə Cəlilov, Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək Vətən torpaqlarının azadlığa qovuşmasında rolu olan şəhidlərimizin və qazilərimizin xidmətlərindən bəhs edib, onların keçdiyi şərəfli döyüş yolunun bugünkü gənclərimiz üçün nümunə olduğunu bildiriblər.

Görüşdə iştirak edən qazilər Təbriz Zeynalov, Anar Cəfərov, Mirkənan Kərimov, Nürəddin Nəbiyev, Ceyhun Davudov, Hüseyn Hacıyev, Seymur Yusifov və Ümman Məmmədov çıxışlarında Vətən müharibəsi dövründə xalqımızın ordumuza dəstəyinin, inamının onların mübarizə gücünü daha da artırdığını, qələbəyə ruhlandırdığını bildiriblər.

Sonra gənclərin sualları cavablandırılıb, Vətən müharibəsi iştirakçılarına plaketlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***



# Azadlığın, qələbənin ünvanı – Şəhidlər xiyabanı

*Hər gün səhər də, axşam da yolum oradan keçəndə illər öncə yaşadıqlarımız xəyalımda canlanır:*

– Bir vaxtlar biz hələ uşaq idik, rayonumuzda bircə əyləncə yerimiz var idi. Yaxşı xatirimdədir, bu salxım söyüdlər təzə əkilmişdi. Oradakı yelləncək, qatarlar biz uşaqların əylənməyə üz tutduğu yerlər idi. Boynumuzda qırmızı pioner qalstuku, əlimizdə güllər Ana heykəlinin qarşısına gəlib, böyük Vətən uğrunda həlak olanların xatirəsini yad edəndə haradan bilərdik ki, o "böyük Vətəni" yaradan və bizi 70 ildir, əsarətdə saxlayan sovet imperiyasının sayəsində sevinib, deyib – güldüyümüz bu yerləri anamız Azərbaycanın müstəqilliyi naminə, torpaqlarımız uğrundan canından keçən igidlərimizin məzarlarının yan-yana düzüldüyü xiyabana çevirəcək. Hansı ki həmin oğulların babaları sovetlər dağılmasın deyə, canından keçmişdi. Bizə "qardaş" kimi qələmə verdikləri ermənilər özləri kimi vəhşi faşistlər qarşısında zağ-zağ əsib, qaçıb gizlənəndə, bizim ər oğullarımız çiyin-çiyinə döyüşüb, "böyük Vətəni" xilas etmişdilər. Həmin ermənilər illərdir, onlara ocağımızdan od, süfrəmizdən çörək, buz bulaqlarımızdan su vermişdik. Amma onlar bir qarın yemək üçün qapımızda fəhləlik etdikləri torpaqlarımıza sahib olmağa çalışdılar. Sovetlər dağılan kimi havadarlarından güc alıb ocağımıza od saldılar.

1990-cı il yanvar ayının 16-dan dərin bir sükut çökmüşdü hər kəsin gözlərinə, indiyə kimi əyləncə yerimiz olan bu salxım söyüdlü park yeni bir ünvana çevrilmişdi... Şəhidlər xiyabanına... İlk şəhidləri yaxın dostlarımızın ataları Məhərrəm Seyidov və Mirhəşim Seyidov oldu. Fikrət Əliyev, Əhəd Seyidov və onlar kimi yüzlərlə oğlumuz səngərdə bir ovuc torpaq düşmənə əsir düşməsin deyə, canından keçdi. Ən çətini isə o idi ki, məktəbli yoldaşlarımız üçün də burada məzar qazıldı. Nəcəf Əliyev, Elşən Rzayev kimi məktəblilər elə təhsil aldıqları məktəbin yaxınlığına düşən top mərmisi ilə şəhadətə yüksəldilər.

Onlarla birgə gəzib, oyunlar oynadığımız yerdə dayanmışam indi. Lal baxışlar məna baxır. Dəfələrlə izləmişəm bu baxışları, amma bu dəfə, sanki dəyişib bu baxışlar. Qürur var bu gözlərdə, buna səbəb isə buranın yeni "sakinləri-nin" – Vətən müharibəsi şəhidlərinin gətirdiyi qələbə xəbəridir, Vətən müharibəsi şəhidi Seymurun məzarı üzərindəki yaxın dostlarının Şuşadan dərib göndərdikləri xarıbülbüldür, bir neçə gün öncə Şuşa dağlarına yayılan "Qarabağ şikəstəsi"nin səsidir onları belə qürurlandıran. Xalqımızın vaxtilə başına gətirilən müsibətlərin qisasını alan oğullar da onlarla bir uyuyur indi bu xiyabanda. Bir-bir ziyarət edib baş əyirəm Vətən oğullarının məzarları önündə. Düşünürəm ki, vaxtilə onlar da burada uyuyan igidlərin məzarlarını and yerinə çevirib "qisas qiyamətə qalmayacaq", – demişdilər. Qalmadı qisasımız qiyamətə. İllər öncə Sədərəkdə canından keçib, günlərlə səngərlərdə ac-susuz qalıb, düşmənə müqavimət göstərib ona torpaq verməyən oğulların yolunu davam etdirdilər. 44 günlük Vətən müharibəsində diyarımızın sərhədlərinə bir güllə belə, atmağa cəsarət etməyən düşməni öz qanında boğmağa tələsən Rüfət, Məmmədhəsən, Həsən, Zülal kimi oğullar Naxçıvandan, igidlər yurdundan Qarabağa yol alıb orada can qoyub, bir olub yurdumuzu – Qarabağımızı düşməndən azad etdilər. Onların dünyaya yumulan gözləri Qarabağımızın gözlərinə işıq verdi. İllərdir, sönən çırağımız alovlandı, azan səsinə həsrət qalan torpağımızın qulağı bu müqəddəs səsi eşitdi. Üçrəngli, ay-ulduzlu bayrağımız Azad, Vüsal, Elton, Adil kimi oğulların əllərində işğaldan azad edilən torpaqlarda dalğalandı. Onlar ən yüksək zirvəyə – şəhidlik zirvəsinə yüksəldilər, o zirvənin başında isə Azərbaycan bayrağını dalğalandırdılar. O bayraq ki enməsin deyə, yüzlərlə igid öz canından keçmişdir. Və bu gün o bayraqlar şəhid məzarlarının başı üstə qürurla şəhidlərimizə keşik çəkir, onların ziyarətçilərini salamlayır.

Rəhbəri olduğum təhsil ocağı and yerimiz olan Şəhidlər xiyabanı ilə üz-üzə yerləşir. Hər bir şagirdimiz gələcəyin əsgəri, qəhrəmanıdır. Hər bir şəhidimizin həyat yolu onlar üçün böyük bir qəhrəmanlıq məktəbidir. Onlar vətənpərvərliyi, Vətən sevgisini burada uyuyan şəhidlərimizin məzar daşındakı Qubadlı, Cəbrayıl, Şuşa kəlmələrindən öyrənirlər. Daş kitabələrdən! Azadlığımızın, qayıdışımızın tarixinin qanla yazıldığı daş kitabələrdən!..

**Çingiz RZAYEV**
***Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin direktoru***

## Bu ilin 4 ayı ərzində muxtar respublikada fərdi uçot sistemində 1013 nəfərə fərdi şəxsi hesab açılmışdır

Fərdi uçot sistemi müasir sığorta-pensiya sisteminin aparıcı komponenti olmaqla, hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasına, işləyən əhalinin əmək pensiyası və digər sosial müdafiə hüquqlarına malik olması üçün pensiya kapitalının formalaşdırılmasına şərait yaradır. Bu sistemin formalaşdırılmasında əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqları ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasından ibarətdir. Vətəndaşlar fərdi uçot sistemində qeydiyyata alınmaqla, onlara uçot dövründə daimi sosial sığorta nömrəsi ilə fərdi şəxsi hesab açılır. Bu da imkan verir ki, sığortaolunan Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalı ilə bağlı məlumat əldə etsin. Bu sistem şəffaflığın daha da artırılmasına gətirib çıxarmaqla yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də sığortaolunanların gələcəkdə pensiya hüququ yarandıqda vaxt itirmədən avtomatlaşdırılmış pensiya təyinatı xidmətinin üstünlüklərindən yararlanmağa imkan verəcəkdir. Başqa sözlə, hər bir işləyən özü üçün sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya təminatı əldə etmək imkanına malik olacaqdır. Həmçinin hər ilin əvvəlində fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı istehlak qiymətləri indeksinə uyğun səviyyədə indeksləşdirilərək artırılması həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları tərəfindən əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınmasını diqqətdə saxlayır, fərdi uçot sistemində uçota alınan sığortaolunanlar haqqında məlumatların sığortaolunanların fərdi şəxsi hesablarına işlənilməsini həyata keçirir. Qeyd edək ki, muxtar respublikada iqtisadi inkişafın davamlı olması, yeni müəssisə və iş yerlərinin yaradılması fərdi uçot sistemində uçota alınan sığortaolunanların sayının artmasına səbəb olmuşdur. Belə ki, 2021-ci ilin 4 ayı ərzində muxtar respublikada fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı 1013 nəfər artaraq, ümumilikdə, 180662 nəfərə çatmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Elan



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsi elan edir.

Müsabiqədə iştirak etmək istəyən telejurnalist və rejissorlar, ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, həvəskar və professional fotoqraflar öz film və fotolarını şəxsiyyət vəsiqələrinin surəti və müvafiq anket ilə birlikdə 2021-ci il 30 sentyabr tarixədək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər.

Müsabiqəyə aşağıda göstərilən mövzular ilə bağlı işlər təqdim oluna bilər:

Vətənpərvərlik, xalqımızın ailə dəyərləri, adət-ənənələri, ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği, ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri, nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti, ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı, qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar, övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı, qonaqpərvərlik ənənələrimizin təbliği.

Əlavə olaraq bildirilir ki, müsabiqədə bir müəllif 1 və ya son hədd 5 ədəd olmaqla, film və foto ilə iştirak edə bilər.

Film (5 dəqiqədən artıq olmaq şərtilə) CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda); foto (5 ədəddən artıq olmamaq şərtilə); CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda), 20x30 santimetr və daha böyükölçülü rəngli kağız formatda olmalıdır.

Müsabiqəyə təqdim edilən işlər yeni olmalı, heç bir tədbirdə iştirak etməməlidir.

Müsabiqəyə təqdim olunmuş işlər "Ən yaxşı film" və "Ən yaxşı foto" nominasiyası üzrə münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcəkdir. Qaliblərə təşkilatçılar tərəfindən müvafiq diplom, qiymətli hədiyyə və pul mükafatı veriləcəkdir.

*Birinci yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 200 AZN olmaqla)*

*İkinci yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 150 AZN olmaqla)*

*Üçüncü yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 100 AZN olmaqla)*

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi***

***Əlaqələndirici şəxs: Tarverdi Məmmədov***
***Telefon: 550-87-14***

***Muxtar respublikanın mədəniyyət müəssisələri tərəfindən pandemiya ilə əlaqədar xüsusi qaydalara ciddi riayət edilməklə aprel ayında da tarixi və əlamətdar günlərlə, tanınmış şəxsiyyətlərin anım günləri və yubileyləri ilə bağlı tədbirlər keçirilmiş, ustad və açıq dərslər, eləcə də təqdimat mərasimləri təşkil edilmiş, "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilmiş müvafiq kitabların müzakirələri təşkil olunmuşdur.***

## Mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilmişdir

Aprel ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə təşkil olunan "Məktəblilərin dram müsabiqəsi"nin muxtar respublika mərhələsi keçirilmiş, qaliblər yekun tədbirində mükafatlandırılmışlar. Ötən ay Nizaminin "Sirlər xəzinəsi" tamaşasına ictimai baxış keçirilərək səhnə əsəri istehsalata buraxılmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar aprel ayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 3 açıq dərs, 1 kitab müzakirəsi və 1 dəyirmi masa, 1 ustad dərs olmaqla, ümumilikdə, 6 tədbir keçirilmişdir. Bundan başqa, Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Musiqi Kollecinin III kurs tələbələrinin Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında təcrübə keçmələri, Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisası üzrə II kurs tələbələrinə isə Naxçıvan Dövlət Tarix Muzeyində praktik dərs keçilməsi təmin edilmişdir.

"Nizami Gəncəvi ili" ilə bağlı Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Nizami Gəncəvinin ideal, ədalətli hökmdar konsepsiyası və insan haqları" mövzusunda dəyirmi masa keçirilmiş, Babək Rayon Xalq Teatrı "Nizami aləminə səyahət" kompozisiyasını tamaşaçılara təqdim etmişdir. Ümumilikdə isə ay ərzində Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş 12 tədbir keçirilmişdir. Aşıq Ələsgərin 200 illiyi ilə bağlı Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyindən "Aşıq Ələsgər yaradıcılığı" mövzusunda interaktiv, Naxçıvan Şəhər və Kəngərli Rayon Mədəniyyət şöbələrinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin Saz ixtisası üzrə müəllimlərinə isə Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ustad dərslər keçilmişdir.

Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. Qeyd edək ki, aprel ayında muxtar respublikanın muzeylərini 19 min 64 nəfər yerli, 1166 nəfər əcnəbi olmaqla, ümumilikdə, 20 min 230 nəfər tamaşaçı ziyarət etmişdir. Həmçinin ötən ay muzeylərə 217 ədəd yeni eksponat daxil olmuşdur.

Ötən ay muxtar respublikanın kitabxanalarında tarixi və əlamətdar günlərlə, həmçinin tanınmış şəxsiyyətlərin doğum və anım günləri ilə bağlı 30 mədəni tədbir keçirilmiş, 33 sərgi nümayiş etdirilmişdir. Kitabxanalarda yeni oxucu sayı 557, oxucu gəlişi 8 min 157, kitab verilişi isə 43 min 292 nüsxə olmuşdur. Elektron kataloqa 704 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 22 min 787-dən 23 min 491-ə çatdırılmışdır. Həmçinin şəbəkəyə 32 kitab (PDF) işlənməklə şəbəkədəki kitabların sayı 3 min 370 olmuşdur. Ay ərzində elektron kitabxanadan 292 lokal, 523 qlobal olmaqla, 815 oxucu istifadə etmişdir.

Hesabat ayında rayon mədəniyyət sarayları, o cümlədən klub müəssisələri tərəfindən əlamətdar və tarixi günlərlə bağlı, ümumilikdə, 22 tədbir keçirilmişdir. Həmçinin Naxçıvan Dövlət Film Fondu tərəfindən aprel ayında Babək Rayon Xalq Teatrının "Qisas qiyamətə qalmaz" adlı tamaşasının və Şərur Rayon Mədəniyyət Şöbəsi tərəfindən hazırlanmış "Xalq yaradıcılığı günləri"nin çəkilişləri olmuşdur. Naxçıvan Dövlət Film Fondu tərəfindən ay ərzində 2 tədbir keçirilmiş, 4 filmin nümayişi olmuş, aparılmış çəkilişlərlə bağlı 3 videomaterial hazırlanmışdır.

Ay ərzində musiqi təhsili müəssisələrində tədrisin səviyyəsinin yüksəldilməsi məqsədilə Şahbuz Rayon Mədəniyyət Şöbəsinin tabeliyində olan uşaq musiqi məktəblərinin müəllim və şagirdləri üçün Fortepiano ixtisası üzrə ustad dərsi keçilmişdir.

Ötən ay nazirliyin Gənclər Təşkilatının və tabe müəssisələrin Gənclər birlikləri üzvlərinin iştirakı ilə keçirilmiş "Naxçıvan orta əsrlərdə: tarix, mədəniyyət, ədəbiyyat" mövzusundakı dəyirmi masa, "Qəlbimdə iz buraxan şəxsiyyətlər", "Gənclərin maraq dünyasına səyahət" və "Şərqdən-Qərbə mədəniyyət" adlı tədbirlər və "Yaşa və öyrən – Bahariyyə" intellektual bilik yarışı gənclər üçün yaddaqalan olmuşdur.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırlanan tamaşaların məşqləri davam etdirilmiş, Babək Rayon Xalq Teatrı "Qisas qiyamətə qalmaz" tamaşasını və "Nizami aləminə səyahət" kompozisiyasını, Ordubad Rayon Xalq Teatrı isə "Qanlı qızıl toy" tamaşasını teatrsevərlərə təqdim etmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 414